http://mfa.gov.az/news/909/3968

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Bəyanatı**

2 aprel 2016-cı il tarixində cəbhəyanı ərazilərdə sıx məskunlaşan mülki əhali hədəfə alınaraq, Ermənistan tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin qoşunların təmas xətti boyunca mövqeləri ağır silahlardan intensiv atəşə məruz qalıb. Erməni Silahlı Qüvvələrinin artilleriya hücumları nəticəsində bir neçə mülki şəxs həlak olub və ciddi yaralanıb. Eyni zamanda ictimai və özəl mülkiyyətə ciddi ziyan vurulub.

Azərbaycan Silahlı Qüvvələri özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi, Ermənistanın təxribatlarının dayandırılması və təcavüzkar fəaliyyətinin qarşısının alınması məqsədilə lazımı addımlar atıb. Hazırda vəziyyət gərgin olaraq qalır. Təmas xətti boyu Azərbaycan mövqelərinin artilleriya da daxil olmaqla, ağır silahlardan atəşə tutulması davam edir.

Ermənistan işğal olunmuş ərazilərdə əlavə raket və artilleriya qüvvələri yerləşdirməklə özünün ağır artilleriya imkanlarını gücləndirməyə cəhd edir və bu ölkənin hərbi helikopterləri işğal olunmuş ərazilərlə Ermənistan arasında intensiv uçuşlar həyata keçirir.

Son illər ərzində minaatan, iri çaplı pulemyot və artilleriyadan istifadə etməklə Azərbaycanın hərbi qulluqçuları, eləcə də mülki əhalisinə qarşı Ermənistan tərəfindən həyata keçirilən bu kimi zorakılıq və hərbi təxribatlar daha intensiv və aqressiv hal alıb.

Cəbhə xəttində gərginliyin artmasına görə Ermənistanın çarəsizcəsinə Azərbaycanı günahlandırmaq cəhdləri onun öz vətəndaşlarını və geniş beynəlxalq ictimaiyyəti aldatmasına xidmət edir.

Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətinə dəfələrlə çatdırıb ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğu gərginliyin artmasına və davam etməsinə əsas səbəb olaraq qalır və regionda sülh və sabitliyə təhlükə yaratmaqda davam edir.

Ermənistanın ardıcıl olaraq təxribatlar törətmək və gərginliyi artırmaq, işğal olunmuş ərazilərdə özünün hərbi mövcudluğunu gücləndirmək, demoqrafik vəziyyəti, zəbt etdiyi torpaqların mədəni və fiziki xarakterini qeyri-qanuni dəyişdirmək, qanunsuz iqtisadi və digər fəaliyyətlərlə məşğul olmaq, həmçinin, erməni əhalisinin bu ərazilərə köçürməklə başlıca məqsədi açıq şəkildə Azərbaycan ərazilərinin ilhaqı və qəbuledilməz və qeyri-davamlı olan status-kvonun saxlanılmasıdır. Status-kvonun qəbuledilməzliyi və qeyri-davamlılığı dövlət başçısı səviyyəsində ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən də dəfələrlə qeyd olunub.

Ermənistan danışıqlar prosesini pozmaq məqsədilə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son təklifləri də daxil olmaqla, ATƏT-in Minsk Qrupunun Həmsədrlərinin bütün təşəbbüslərini rədd edib. Bu bir daha sübut edir ki, rəsmi Yerevan həqiqətən də hərbi münaqişənin siyasi həllinin tapılmasında maraqlı deyil.

Münaqişənin həlli üçün başlıca əsaslar BMT Təhlükəsizlik Şurasının 822(1993), 853(1993), 874(1993) və 884(1993), həmçinin BMT Baş Assambleyasının 62/243 (2008) saylı qətnamələrində təsbit edilib. Belə ki, bu qətnamələrdə Azərbaycana qarşı

gücdən istifadə və onun ərazilərinin işğal edilməsi pislənilib, eləcə də, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib. Sözügedən qətnamələrdə BMT Dağlıq-Qarabağ regionunun Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq edib və işğalçı qüvvələrin bütün işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edib.

Azərbaycan torpaqlarının hərbi işğalı münaqişənin həllinə xidmət etmir və heç zaman Ermənistanın arzu etdiyi siyasi nəticələrlə yekunlaşmayacaqdır. Ermənistan bu reallıqla nə qədər tez barışsa münaqişə bir o qədər tez həll olar və regiondakı ölkələr və insanlar əməkdaşlıq perspektivlərindən və iqtisadi inkişafdan faydalanmaq imkanı qazanarlar.

Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistandan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan torpaqlarının qeyri-qanuni işğalını dayandırmağı, bütün işğal olunmuş ərazilərdən öz qoşunlarını çıxartmağı və münaqişənin həlli prosesində konstruktivlik göstərməyi tələb etməyə çağırır.

**XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib:**
**02/04/2016**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumat verdiyi kimi aprelin 2-nə gecə Ermənistan ağır silahlardan istifadə etməklə qoşunların təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini intensiv atəşə tutub, təxribat və həmlələr həyata keçirib. Cəbhə xəttinə yaxın ərazilərdə mülki əhalinin sıx yaşadığı məntəqələr Ermənistan Silahlı Qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalıb. Ermənistan tərəfinin qəsdən törətdiyi məsuliyyətsiz əməllərin nəticəsində mülki şəxslər arasında ölən və yaralananlar və şəxsi mülkiyyətə ciddi zərər dəyməsi haqqında məlumatlar vardır.

Beynəlxalq humanitar hüquqa uyğun olaraq, üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq, Ermənistan tərəfindən mülki obyektlərin artilleriya atəşinə tutulması beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə qınanılmalıdır.

Təcavüzkar və işğalçı dövlət kimi, yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür.

Ermənistan Silahlı Qüvvələrinin vəziyyətin gərginləşdirilməsinə yönəlmiş əməlləri Azərbaycan Respublikasının Kəlbəcər rayonunun 2 aprel 1993-cu il tarixində işğalı tarixi ilə üst-üstə düşür. Kəlbəcərin işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən məxsusi olaraq 822(1993) saylı qətnamə qəbul edilmişdi.

BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874(1993) və 884(1993) saylı qətnamələrində Ermənistan qoşunlarının tam və qeyd-şərtsiz bütün işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması tələb olunsa da, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı, vəziyyətin qəsdən gərginləşdirilməsi və mülki insanların hədəfə alınmasına yönələn təxribatçı əməllər davam etdirilir.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərində mövcudluğu münaqişənin həllinə başlıca maneə olaraq, vəziyyətin gərginləşməsi və insidentlərin baş verməsinin əsas səbəbidir.

Münaqişənin həllinə nail olmaq və regionda davamlı sülhü bərqərar etmək üçün beynəlxalq ictimaiyyət qəti şəkildə BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinin tələblərinə uyğun olaraq, ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün Azərbaycan ərazilərindən çıxarılmasını rəsmi Yerevandan tələb etməlidir.

**RESPUBLİKA BAŞ PROKURORLUĞU VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI**

Son günlər Ermənistan Silahlı Qüvvələri tərəfindən atəşkəs rejimi və beynəlxalq hüququn tələbləri kobud şəkildə pozularaq Azərbaycanın cəbhəboyu, həmçinin, təmas xəttinə yaxın olmayan yaşayış məntəqələri və mülki obyektlər iriçaplı silahlardan, mina və qumbaraatanlardan, artilleriya qurğularından intensiv atəşə tutulur.

Aprelin 2-də törədilmiş növbəti belə təxribat və diversiya aktları nəticəsində mülki əhalinin milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürülməsi, öldürülməsinə cəhd edilməsi, vətəndaşlara məxsus əmlakın məhv edilməsi ilə müşayiət olunan xüsusilə ağır və ağır cinayət əməlləri qeydə alınıb. Dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Vətəndaşlara külli miqdarda maddi və mənəvi ziyan vurulub. Bir orta məktəb binası, çoxsaylı evlər, obyektlər, istehsal müəssisələri düşmənin artilleriya zərbələrinə tuş gəlib, nəqliyyat vasitələri, yüksək gərginlikli elektrik xətləri sıradan çıxıb.

Həmin gün saat 08 radələrində Tərtər rayonunun Qarağacı kəndi ərazisinə atılmış mərmilərdən biri kənddə məskunlaşmış Rəhimov Cəlal Saday oğlunun idarə etdiyi «VAZ-2107» markalı avtomobilin üzərinə düşüb. Nəticədə avtomobildə olan sərnişin, 1993-cü il təvəllüdlü Rəhimov Orxan Valeh oğlu hər iki ayağını itirərək yerindəcə qanaxmadan ölüb. Avtomobilin sürücüsü Cəlal Rəhimov və yaxınlıqda olan 1990-cı il təvəllüdlü Əhmədov Ramin Rafiq oğlu çoxsaylı qəlpə yaraları alıblar.

Saat 12.00 radələrində düşmənin artilleriya atəşləri nəticəsində mərmilərdən biri də həmin qəsəbədə məskunlaşmış Əhmədov İsa Əli oğlunun yaşadığı mənzilə düşüb. Çoxsaylı qəlpə yaraları alan İ.Əhmədov Bərdə Mərkəzi rayon xəstəxanasına yerləşdirilib.

Saat 19:20 radələrində rayonun Şıxarx qəsəbəsi ərazisinə atılmış mərmilərdən biri də 1987-ci il təvəllüdlü Əliyev Sadiq Natiq oğlunun idarə etdiyi «Niva-2121» markalı avtomobilin üstünə düşüb. Nəticədə avtomobildə olan sərnişin, 1992-ci il təvəllüdlü Əsədli Fərman Elçin oğlu çoxsaylı qəlpə xəsarətləri alaraq qanaxmadan ölüb. Sürücü və digər sərnişin, 1982-ci il təvəllüdlü Rəhimov Mübariz Vaqif oğlu çoxsaylı qəlpə yaraları alıblar.

Saat 20.00 radələrində yaşadığı evin yaxınlığına erməni hərbi birləşmələrinin atdığı top mərmisinin partlaması nəticəsində Ağdam rayonunun Əfətli kənd sakini, 1953-cü il təvəllüdlü Hüseynov Cümşüd İslam oğlu bel nahiyəsindən ağır xəsarət alıb və o, dərhal xəstəxanaya yerləşdirilib.

Saat 21.00 radələrində Seydimli kəndi ərazisinə atılmış mərmilərdən biri kənd sakini, 1951-ci il təvəllüdlü Vəliyev Vahid Vəli oğlunun yaşadığı mənzilə düşərək onu və azyaşlı nəvəsi, 2003-cü il təvəllüdlü Sənan Vəlizadəni ağır yaralayıb.

Aprelin 2-də Goranboy rayonunun Qarqucaq kənd sakini, 1938-ci il təvəllüdlü İbrahimov Əbdüləzim Mürsəl oğlu və Tapqaraqoyunlu kəndində yaşayan 1974-cü il təvəllüdlü Allahverdiyev Abbas Şiraslan oğlu da düşmənin atdığı mərmiyə tuş gələrək ağır yaralanıblar.

Ermənistan Silahlı Qüvvələri tərəfindən atılmış mərmilərdən biri də Tərtər şəhər sakini, 1949-cu il təvəllüdlü Kruqlova Olqa İvanovnanın yaşadığı mənzili tamamilə dağıdıb.

Göstərilən bütün faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, istintaq aparılır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında qarşıya qoyduğu tapşırıqların icrasının, həmçinin döyüş əməliyyatları aparılan rayonların ərazisində ictimai asayişin qorunması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün hüquq mühafizə orqanları tərəfindən bütün tədbirlər görülür, əməliyyat şəraiti nəzarətdə saxlanılır.

Ermənistan Respublikasının Silahlı Qüvvələri 2 aprel 2016-cı il tarixdə saat 03 radələrindən başlayaraq Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən Tərtər rayonu ərazilərinə hücum etməsi ilə bağlı iri çaplı silahlardan və ağır artleriyadan istifadə etməklə mülki əhalinin milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürülməsi, qəsdən öldürülməsinə cəhd edilməsi və vətəndaşların şəxsi mülkiyyətində olan xeyli və külli miqdarda əmlaklarının qəsdən məhv edilməsi məqsədilə Tərtər rayonunun Qapanlı, Seydimli, Cəmilli, Ağkənd və Borsunlu kəndləri istiqamətində hücum edərək artileriya zərbələri endirmiş, nəticədə mülki əhalinin qəsdən öldürülməsi, müxtəlif dərəcəli bədən xəsarətləri alması və əmlaklarının məhv edilməsi ilə nəticələnən xüsusilə ağır və ağır cinayət əməlləri törədilmişdir.

Belə ki, aprelin 2-də saat 03:00 radələrindən etibarən Azərbaycan Respublikası və Ermənistan qoşunlarının təmas xəttində düşmən hərbi birləşmələri tərəfindən atəşkəs rejiminin intensiv pozulması və milli zəmində düşmənçilik niyyətilə qəsdən adam öldürmək məqsədilə düşmənin artileriya atəşləri nəticəsində həmin gün saat 08 radələrində Tərtər rayonunun Qarağacı kəndi ərazisinə atılmış mərmilərdən biri rayonun Qarağacı kəndində məskunlaşmış Rəhimov Cəlal Saday oğlunun idarə etdiyi «Vaz-2107» markalı avtomobilin üzərinə düşmüş, nəticədə avtomobildə olan sərnişin, rayonun Qarağacı kəndində məskunlaşmış, 1993-cü il təvəllüdlü Rəhimov Orxan Valeh oğlu hər iki baldır nahiyyəsinin amputasiyası və çoxsaylı qəlpə xəsarətləri alaraq qanaxmadan ölmüş, avtomobilin sürücüsü Cəlal Rəhimov və avtomobilin yaxınlığında olan 1990-cı il təvəllüdlü Əhmədov Ramin Rafiq oğlu isə çoxsaylı mərmi yaraları almışlar.

Həmin faktlarla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.12 və 29, 120.2.12-ci maddələri ilə cinayət işi başlanmışdır.

Bundan başqa, həmin gün saat 12 radələrində düşmənin artilleriya atəşləri nəticəsində mərmilərdən biri rayonun Şıxarx qəsəbəsində məskunlaşmış Əhmədov İsa Əli oğlunun yaşadığı mənzilə düşmüş, nəticədə çoxsaylı qəlpə yaraları ilə müşayiət edilən bədən xəsarətləri alaraq Bərdə Mərkəzi rayon xəstəxanasına daxil olmuşdur. Həmin faktla bağlı Cinayət Məcəlləsinin 29, 120.2.12-ci maddəsi ilə cinayət işi başlanmışdır.

Saat 21 radələrində rayonun Seydimli kəndi ərazisinə düşmən artilleriyası tərəfindən atılmış mərmilərdən biri kənd sakini, 1951-ci il təvəllüdlü Vəliyev Vahid Vəli oğlunun yaşadığı mənzilə düşmüş, nəticədə o və azyaşlı nəvəsi, 2003-cü il təvəllüdlü Sənan Vəlizadə isə qəlpə yaraları ilə rayon Mərkəzi xəstəxanasına daxil olmuşlar. Həmin faktla bağlı Cinayət Məcəlləsinin 29,120.2.12-ci maddəsi ilə cinayət işi başlanmışdır.

Saat 19:20 radələrində rayonun Şıxarx qəsəbəsi ərazisinə atılmış mərmilərdən biri Bakı şəhər sakini, 1987-ci il təvəllüdlü Əliyev Sadiq Natiq oğlunun idarə etdiyi «Niva-2121» markalı avtomobilin üstünə düşmüş, nəticədə

avtomobildə olan sərnişin, Gəncə şəhər sakini, 1992-ci il təvəllüdlü Əsədli Fərman Elçin oğlu çoxsaylı qəlpə xəsarətləri alaraq qanaxmadan ölmüş, avtomobilin sürücüsü Sadiq Əliyev və avtomobildə olan digər sərnişin, hərbi qulluqçu, Bakı şəhəri sakini, 1982-ci il təvəllüdlü Rəhimov Mübariz Vaqif oğlu isə çoxsaylı qəlpə yaraları almışlar.

F.Əsədlinin düşmən hərbçiləri tərəfindən milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürülməsi, eləcə də digərlərinin eyni niyyətlə qəsdən öldürməyə cəhd edilməsi faktlarına görə Cinayət Məcəlləsinin 120.2.12 və 29, 120.2.12-ci maddələri ilə cinayət işi başlanmışdır.

Düşmən hərbçiləri tərəfindən milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürməyə cəhd edilməsi və əmlakının qəsdən məhv edilməsi məqsədi ilə saat 11 radələrində düşmən artilleriyası tərəfindən atılmış mərmilərdən biri Tərtər şəhər sakini, 1949-cu il təvəllüdlü Kruqlova Olqa İvanovnanın yaşadığı evə düşmüş və əmlakı qəsdən məhv edilmişdir, Həmin faktla bağlı Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

Şəhər sakini Kərimov İlqar Kərim oğlu və ailə üzvlərinin düşmən hərbçiləri tərəfindən milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürməyə cəhd edilməsi və əmlakının qəsdən məhv edilməsi məqsədi ilə saat 11 radələrində artilleriya mərmisinin yaşadığı evə düşməsi faktına görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

Saat 12 radələrində rayonun Şıxarx qəsəbəsində yerləşən Qum-çınqıl zavoduna məxsus külli miqdarda əmlakın düşmən hərbçiləri tərəfindən düşmənçilik niyyətilə qəsdən partladılmaqla məhv edilərək külli miqdarda ziyan vurulması faktına görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

02 aprel 2016-cı il tarixdə saat 20 radələrində Ağdam rayonu Əfətli kənd sakini, 1953-cü il təvəllüdlü Hüseynov Cümşüd İslam oğlunun yaşadığı evin yaxınlığına erməni hərbi birləşmələrinin atdığı top mərmisinin partlaması nəticəsində bel nahiyəsindən xəsarət almışdır.

Cümşüd Hüseynov dərhal Ağcabədi rayonu Sarıcalı kəndində yerləşən 056 saylı hərbi qospitala aparılmış, həkimlərin göstərdiyi tibbi yardım nəticəsində hazırda vəziyyəti qənatbəxşdir.

Hüseynov Cümşüd İslam oğlunun xəsarət alması faktına görə Azərbaycan Respublikası CM-nin 29,120.2.12-ci maddəsi ilə cinayət işi başlanmışdır.

02 aprel 2016-cı il tarixdə saat 03:00 radələrindən başlayaraq, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində Ağdam rayonu Qaradağlı kənd sakini Xəlilov Elşad Tösü oğlunun fermasındakı tövlənin dam örtükləri dağılmış və tövlədə olan 1 baş iribuynuzlu mal-qara tələf olmuşdur.

Fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

02 aprel 2016-cı il tarixdə saat 03:00 radələrindən başlayaraq, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində Ağdam rayonu Evoğlu kənd sakini Rəhimov İxtiyar Məhəmməd oğlunun fermasındakı tövlə dağılmışdır.

Baş vermiş hadisədə əmlakı partlatmaqla qəsdən məhv etmə və ya zədələmə cinayətinin tərkib əlaməti olduğundan, fakta görə Azərbaycan Respublikası CM-nin 186.2.2-ci maddəsi ilə cinayət işi başlanmalı və iş üzrə ibtidai istintaqın aparılması Ağdam rayon polis şöbəsinin istintaq qrupunun müstəntiqi, polis baş leytenantı Nəcəfov Şamil Rövşən oğluna tapşırılmalıdır.

Fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

02 aprel 2016-cı il tarixdə saat 03:00 radələrindən başlayaraq, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan

silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində Ağdam rayonunun Sarıcalı kənd tam orta məktəbinin binasının damına düşmüş mərmi nəticəsində, binanın damı yararsız hala düşmüş, həmin vaxt asfalt yolla keçən Ağdam rayonu Baharlı kənd sakini Xəlilov Nizami Hətəm oğluna məxsus «VAZ-2107» markalı, 14-BD-146 dövlət qeydiyyat nişanlı avtomobilin ban hissəsinə mərmi qırıntıları dəyərək avtomobil zədələnmişdir.

Fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

02 aprel 2016-cı il tarixdə saat 03:00 radələrindən başlayaraq, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində Ağdam rayonunun Bənövşələr qəsəbəsində yaşayan Naibov Şirazi Tofiq oğlunun həyətyanı sahəsindəki mal-qaranın saxlanc yerinə mərmi düşmüş, nəticədə ona məxsus xırdabuynuzlu heyvanlar - 40 baş qoyun tələf olmuşdur.

Fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

02 aprel 2016-cı il tarixdə saat 03:00 radələrindən başlayaraq, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində Ağdam rayonunun Baharlı qəsəbəsi 199 nömrəli evdə yaşayan Şükürov Muxtar Mehtiqulu oğlunun həyətinə mərmi düşmüş, nəticədə həyətin üzüm çardağı və dəmir hasarı dağılmışdır.

Fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.

2016-ci ilin aprel ayının 1-dən 2-nə keçən gecədən başlayaraq Goranboy rayonun cəbhə boyu mövqeləri və qoşunların təmas xəttinə yaxın mülki əhalinin sıx yaşadığı bir sıra yaşayış məntəqələri, o cümlədən Goranboy rayonunun Tap-Qaraqoyunlu kəndi Erməni silahlı bölmələri tərəfindən ümumi təhlükəli üsulla, yəni iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutulması nəticəsində kənd sakinləri Allahverdiyev Abbas Şiraslan oğlu, Mustafayev Gülaləm Fəxrəddin oğlu, Teymurov Ceyhun Bəylər oğlu, Mustafayev Zabit Mustafa oğlu, Yaqubov Rəhman Bəhman oğlu və ailə üzvlərinin düşmən hərbçiləri tərəfindən milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürməyə cəhd edilməsi və əmlakının qəsdən məhv edilməsi faktlarına görə 03 aprel 2016-ci il tarixdə Goranboy rayon prokurorluğu tərəfindən hər bir fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.12 və 186.2.2-ci maddələri ilə cinayət işi başlanmışdır.